# Baharın astanasında

***Mənəvi dəyərlərimizə sədaqət və ehtiram nümayiş etdirən Novruz bayramı insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün həmişə gözəl zəmin yaratmışdır. Qoy hər gələn Novruzumuz müstəqil Azərbaycanımızın tərəqqisi naminə cəmiyyətdə milli həmrəyin tam bərqərar olunması işində yeni bir mərhələ olsun, təbiətin oyanması və yeniləşməsinin rəmzi olan bu bayram ürəklərdə ancaq saf niyyətlər, xoş duyğular oyatsın.***

**Heydər ƏLİYEV.**

Xalq deyiminə görə Novruz insanların şaxtadan, soyuqdan xilas olması, yeni təsərrüfat ilinin, bir sözlə, yeni həyatın başlanması, şər qüvvələrdən qurtulmaq, təmizləşmək, paklaşmaq mərhələsinə qədəm qoyuluşudur. Ulularımız həyat boyu qışdan daha tez yaxa qurtarmağa çalışmış, qarın, buzun əriməsini, torpağın donunun açılmasını, oyanışını gözləmiş, yazın gəlişini bayram əhval-ruhiyyəsi ilə qarşılamışlar. Bu həm də xeyrin şərə, gündüzün gecəyə, işığın zülmətə qələbəsi kimi dəyərləndirilmişdir.

Novruzu təntənə ilə qarşılamaq üçün hələ bir ay əvvəlcədən hazırlıq başlanır. Bunun üçün həyət-baca təmizlənir, evlər ağardılır, bayramlıq tədarükü görülür.

Adəti üzrə bizdə Novruzun dörd çərşənbəsi ardıcıl olaraq qeyd edilir. Bu da təbiətdə suyun, odun, torpağın və küləyin oyanması ilə bağlıdır.

Boz ayın birinci çərşənbəsi, su çərşənbəsi adlanır. Mifik təfəkkürə görə təbiətin oyanışı, ilk olaraq suda özünü göstərir. Əzəl çərşənbəni səciyyələndirən əsas ənənələrdən biri də paklıq, təmizliuk simvolu sayılan suya müqəddəslik kimi münasibət bəslənməsidir.

İnsanlar bu müqəddəs gündə sübh tezdən axar suyun üstünə gedər, azarbezarlarından qurtulmaq üçün su üstündən tullanar, əl-üzlərini yuyar, saf sudan bir qurtum içərlər. Suyun hikmətinə inanan insanlar ona ürəklərini açar, uşağı olmayanlar ondan övlad diləyərlər. El arasında su falı açmaq da elə bu inacdan yaranıb.

İkinci çərşənbə olan Od çərşənbəsində havalar isinər, təbiət oyanmağa başlayar. Bu çərşənbədə insanlar tonqal qalayıb, onun üstündən tulanarlar ki, ağrıacıları, dərdi-bəlaları bu oda tökülüb yansın. Evdə üzərlik yandırarlar ki, şər qüvvələr, azar-bezar yox olsun.

Üçüncü çərşənbə Yel və ya Külək çərşənbəsidir.

İlin son çərşənbəsi isə Torpaq çərşənbəsidir. Bu çərşənbədə qış yuxusuna qalmış torpaq oyanır. Xalq inancında deyildiyinə görə axır çərşənbə Novruza düşəndə il uğurlu olar.

Axır çərşənbədə heç kimin ocağı boş qalmamalıdır, hamı qazan asıb, xörək hazırlamalıdır.

Bayramlıq xonca tədarük edilməli, qovurğa qovrulmalı, şəkərbura, paxlava, şorçörək və digər ləziz təamlar bişirilib süfrəyə düzülməlidir.

Adətə görə, bu axşam hamı ata ocağının başına toplaşmalıdır.

Bu bayramda əlsizayaqsızları, kimsəsizləri və imkansızları yad etmək savab sayılır. Xeyirxahlıq Tanrı tərəfindən də müsbət qəbul olunur.

Novruzla bağlı əlamətlərdən biri də yeni ildə küsülülərin barışmasıdır. Köhnə ildən qalan söz-söhbətə, dedi-qoduya, giley-güzara son qoyulmalıdır.

Novruz bayramı günləri el-oba bir-biri ilə bayramlaşmali, bir-birinə baş çəkməli, hamı bir-birinə can deyib, can eşitməlidir. Bayram günlərində dünyalarını dəyişmiş əzizlərimizin xatirəsi də unudulmamalıdır. Onların ruhunu şad etmək hamımızın borcudur.

Qarşıdan gələn Novruz bayramınız mübarək!

**Miri RƏHİMOV,**
**«Qəbələ»nin əməkdaşı.**

## Məzunlarla görüş

Böyük Pirəlli kənd tam orta məktəbində hazırda tələbə adını daşıyan 28 nəfər məzunla XI sinif şagirdlərinin görüşü keçirilmişdir. Tədbirdə məktəbin pedaqoji kollektivi də iştirak etmişdir. Yığıncağı məktəbin direktoru Maarif Yolçuyev açmışdır. O, məzunları məktəb rəhbərliyi və şagird kollektivi adından salamlamış, məzunlara, həmçinin onbirincilərə təhsil yollarında uğurlar arzulamışdır.

Yığıncaqda çıxış edən məzunlar və onbirincilər öz ürək sözlərini söyləməklə bərabər, harada olsalar belə müəllimlərinin, məktəb rəhbərliyinin etimadını doğrultmağı, öz gənclik çağlarının bütün energiyasını elmə, təhsilə, faydalı əməyə,doğma diyarın, bütövlükdə vətənin firavanlığına, azadlığına və müstəqilliyinin qorunmasına sərf etməyi vəd etmişlər.

**Cənclikdi insana birinci nemət,**
**Heyif ki, tez keçir, ömrü az olar.**
**Yüz payız, yüz bahar keçsə də belə**
**Ömrün gənclik çağı qayıtmaz olar.**

Görüş gənclərimizin gələcəyə yüksək inamı, yüksək əhval-ruhiyyəsi üzərində köklənməklə başa çatdı.

**Pərvanə MİRZƏMMƏDOVA,**
**məktəbin təşkilatı işlər üzrə direktor müavini.**

## Futbol

### «Qəbələ» «Xəzər Lənkəran»ı üstələdi

Unibank Premyer Liqasında XXI turun oyunları keçirildi. Öz doğma meydançasında «Xəzər Lənkəran»ı qəbul edən «Qəbələ» oyunun 1-ci və sonuncu dəqiqəsində 11 nömrəli hücumçu Yannik Kamananın vurduğu iki cavabsız topla qonaqları məyus qoydu. Çoxsaylı tamaşaçı ordusu bu dəfə də tribunaları sevinc hissi ilə tərk etdi.

Turun digər görüşləri isə belə nəticələnmişdir: «Rəvan»—«Qarabağ»—2:3, «Simurq»—«Bakı»—0:0, «Neftçi»—«İnter»—2:0, AZAL—«Kəpəz»—3:0, «Sumqayıt»—«Turan»—0:1.

«Qəbələ»yə məğlubiyyətdən sonra «Xəzər Lənkəran»ın baş məşqçisi istefaya göndərilmişdir.

**M. RƏHİMOV.**

## Mirzəbəyli kənd İnzibati Ərazi Nümayəndəliyi cari təmir və təsərrüfat xərcləri üçün materialların alınmasına katirovka sorğusu ELAN EDİR

Katirovka sorğusu mart ayının 7-dək qəbul olunur.

## Xeyriyyəçilər və humanist insanlar, sizə müraciət edirəm

Oğlum Ruhitin 32 yaşı var. Anadangəlmə gözlərinldən şikəstdir. Uzun illərdir müalicə ilə yaşayır. Bir gözü süni gözlə əvəz olunub. İndi həm də dializ xəstəsidir. Böyrəklərinin hər ikisi dəyişilməlidir. Bu ağır xəstəliklərin xarici ölkələrin birində müalicəyə ehtiyacı var. Lakin müəllim və pensiyaçı ailəsi olduğumuz üçün müalicəyə maddi imkanımız çatmır.

**Benefisiar (alan bank)**
Adı: Kapital Bank Qəbələ filialı.
Kodu: 200491 Vöen: 9900003611 Müxbir hesab: AZ37NABZ01350 100000000001944
S.WI.F.T. BIK AIIBAZ 2 X

**ALAN MÜŞTƏRİ:**
Adı: Ağababayev Ruhit Şakir oğlu
Hes. AZ89AİİB38010019444901560149

Xeyriyyəçi və humanist insanlar yəqin ki, Ruhiti bu ağır bəladan qurtarmaq üçün ailəmizə kömək əllərini uzadarlar. Bu məqsədlə Kapital Bankın Qəbələ filialında hesab açılmışdır:

Mənə kömək edənlərə, əl tutanlara qabaqcadan minnətdarlığımı və təşəkkürlərimi bildirirəm.

**Qəbələ rayonu, Böyük Pirəlli kəndi,**
**Ağababayev Şakir.**

## Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzi xəbərdarlıq edir!

**Dəm qazından ehtiyatlı olun–bu, zəhərlənməyə səbəb ola bilər.**

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ şəhər 1 saylı tam orta məktəbin müəllimi İlkizər Məmmədova və ailəsi **Arzu** və **Mətanət Qasımovalara**, əzizləri

**MAHİRİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.